**UOT 791.2**

**Aysel Ağaşirin qızı Rüstəmova**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**Dissertant**
**E-mail: aysel_rustemliar@mail.ru**

# SƏNƏDLİ FİLMİN YARANMASININ NƏZƏRİ ASPEKTLƏRİ

**Xülasə:** Elmi məqalədə kino sənətininincəsənət sahəsinə çevrilməsindən, kinematoqrafiyanın məhsuldar fəaliyyətindən, kinonun qanunlarından bəhs olunmuşdur. Sənəd sözünün geniş anlayışından, sənədlilik prinsipindən, bu terminin kinoda inkişafından söhbət açılmışdır. Burada sənədli filmlərin yaranma tarixi, ekran yaradıcılığında rolu, nəzəri müddəaları araşdırılmışdır. Sənədli filmin xüsusiyyətləri, janrın təsnifatı, məqsəd və vəzifələri, funksiyalarının əhəmiyyəti ətraflı şəkildə izah edilmişdir.

**Açar sözlər:** Kino, kinematoqrafiya, sənədlilik, sənədli film, gerçəklik, reallıq

Kino sənəti XIX əsrin sonlarından başlayaraq əyləncə mahiyyətini özündə əks etdirirdi. Bu işin sahibləri sadə fotoları dördkünc formada vizual təsvirdə canlandıraraq insanlarda maraq oyadırdılar. Onlar toplu şəklində bu gün kinoteatr dediyimiz yerlə tanış oldular, həcminə görə balaca, qaranlıq salonlara gələnlər üçün kino yeni bir incəsənət sahəsinə çevrildi. Kino bizim həyatımızda ətraflı baxış bucağı açdı, fəal olan insanın bu kainatla əlaqəsini, yaşayış mənzərəsini, əşyaların orijinal üzünü, ümumi olayların hərəkətini aşkara çıxardı. Kinematoqrafiya həmçinin həm aktiv, həm də məhsuldar fəaliyyətdir. Zamanın ruhu həyatımızın bir parçası olaraq sənətdə formalaşırsa, kinoda özünü belə doğruldur. Hazır olan formaları meydana çıxarır, sınaqdan keçirir, onların əsas qanunauyğunluğunu tapır. Kinematoqrafiyanın xarakteri düzgün şəkildə fotonun görünən parçasında əzəmətli sənət olaraq daha da təkmilləşir və bu irəliləmə kino sənətinin qanunları hesab edilir. Kinematik kadr izləyən şəxsə müəyyən baxış nöqtəsi verir. Bu fərdin istənilən personajlardan biri olması mümkündür. Film bu izləyicinin nələri və necə gördüyünü göstərir. Kino ekranı yalnız təhkiyəli deyil, həm də filmin həmsöhbət formasına salınması onunla qarşılıqlı münasibət quran seyrçinin zövqünü oxşayır. Kino həyatın görünən təsvirinə yaxın olmaqla, reallıqda baş verən hadisələri bir sənətdə çəkə bilir. Film ekran sabitliyinin əsasını əmələ gətirən uyğunlaşmadır, bizimlə münasibət qurur ən çətin əks nöqtələri dərk etməyimizi istəyir. Kinoda gerçəkliyə üç etapdan yanaşma vardır. Reallığı axtarmaq, şərh etmək və yenidən söyləmək. Həqiqəti bir hekayənin müstəvisində deyil, olduğu kimi ötürmək izləyici

aləminə yeni baxış bucağından köklənir. Audiovizual təsvir özünü məkan və zamana uyğunlaşaraq güvən modeli kimi tamaşaçılara təqdim edilir. Bir tərəfdən rəsmlər olmuş obyektlər arasında əlaqə yaradır, başqa bir yöndən ekran və səs ilə müəllif-seyrçi rabitə bucağında məlumatı ötürmək rolunu yerinə yetirir. Belə ki, həqiqət və həyata oxşarlıq duyğuları olmadan kino sənəti heçdir.

Bəşəriyyəti görmək düşüncəmizin nəticəsidir, varlığa baxışımız ağlımızın, temperamentimizin məhsuludur. Faktlar, hadisələr barədə informasiyanın müxtəlif vasitələrlə: yazı, fotoşəkil, səs və s. ilə çatdırılması onun sənəd üzərində bərpasıdır. "Sənəd" sözü geniş anlayışdır, cəmiyyətdə qeydlərin toplanılması, saxlanılması, məlumatların yayılması sistemini əks etdirir. İki növə ayrılır: birincisi, maddi yazı daşıyıcısı kimi, ikincisi istənilən bir faktı hüquqi formada təsdiq edən kağızdır. Sənədlilik prinsipi kinoda daha açıq şəkildə öz rolunu yerinə yetirir: 1) gerçək, xəyali olmayan hadisə barədə informasiyanı çatdırır; 2) elmi biliklərin nəzəriyyəsinin əsasını həqiqətə uyğun sistemləşdirir. "Sənədli" termini kütləvi şüuru göstərməklə olmuş yeniliklərə nüfuz edir, cəmiyyətin inkişafına, şərait kontekstinə aktiv surətdə daxil olur. *"Sənədli görüntü" termini ümumi qəbul edilmiş "sənəd" mənasında, yəni: sənədli görüntü, təfərrüatları süni şəkildə modelləşdirilməmiş müəyyən bir təbiətin kino vasitəsilə təsbit edilməsinin nəticəsidir* [3, s.125]. Sənədlilik incəsənətdə həm obyektiv, həm də subyektiv obrazda öz əksini tapır. Mütəxəssislərin fikirləri ondan qaynaqlanır ki, hər hansı bir informasiya bazası qanun-qaydadan kənarlaşmır, sənəd əsasında bütövlüyünü şərtləndirir.

Sənədli filmlər çox dəyərli vasitədir, yaddaşın canlı qalmasında gələcək nəsillərə ötürmək üçün ləvazimat hazırlayır, rejissorun əlavələrinə tabe olur. Sənədli filmin yaranma gedişi dörd əsas səviyyədə – reallıq, əsər, müəllif, tamaşaçıda özünü doğruldur. 1895-ci ildə dünyada ilk qısametrajlı kadrlar Fransada Lümyer qardaşlarının lentə aldığı kiçik xronikal sənədli filmlər aləmə səs saldı və bu sahədə təcrübə qazanaraq bacarıqlı rejissorlar üzə çıxdı. Robert Flaerti, Aleksandr Mişon, Con Qrirson və s. Bizim ölkədə isə sənədli filmlərimizin təməli 1898-ci ildə qoyulmuşdur. Yerli sənədli rejissorlardan Niyazi Bədəlov, Muxtar Dadaşov, Oqtay Mirqasımov və başqaları bu sahədə sayılıb-seçilmiş ustadlardan sayılır. Sənədli filmlər araşdırma materialıdır, metodologiyaya əsasən, həm yaradıcı peşədə, həm də nəzəriyyədə gərəkli hadisələri meydana gətirir. S.V.Drobaşenko öz düşüncələrini bu cür şərh edir: *"Sənədli film həm yaradıcı sahədə, həm də nəzəriyyədə yeni, çox diqqətəlayiq hadisələri meydana gətirdi"* [4, s.18]. Elmdə reallığın müşahidəsi faktların doğrulanması ilə sonlandı. Nəzəri formada isə dinamik, birbaşa həqiqətin bütövlüyünü göstərdi. Reallıq sənədli filmin əvəzolunmaz xüsusiyyətidir. Xatirələrə yeni əlavələr daxil edərək keçmişin və gələcəyin hadisələrinin

məsuliyyətini daşıyır, reportaj çərçivəsinə sahiblənərək mövzu ilə birbaşa qarışır. Məhz bu baxımdan sənədli film daha böyük formada yalnız gerçək həyatı deyil, həmçinin həqiqətin birbaşa kinematik təsirini göstərir. Belə ki, sənədli film gerçəkliyə köklənir, absurddan uzaq real hadisələr fonunda cərəyan edir.

Ekran yaradıcılığında həyatın orijinal rolunu tutmağın əsas nailiyyəti gerçək əlaqələri bir obyektə yönəltməkdir. Buna görə həqiqət simvollarının xarakterinin məcmusunu üzə çıxarmaq sənədli filmin uzunmüddətli axtarışı üçün vacib vasitələrdən biri hesab edilir. Sənədli film bu nəzəriyyədə realizmin əsas sisteminə daxil edilməklə, yeni və önəmli faktlar meydana çıxarır. Kinematoqrafik film mütləq azadlığa, qanun-qaydaya zidd hərəkətə yol vermir, dövrünə, zamanına əsasən hadisələrin qiymətləndirilməsinə asılılıq yaradır, gerçəkliyin xüsusiyyətlərini izləyiciyə çatdırır. Gerçəkliyin tərkib hissələri, şüurun xüsusi mərkəzi nöqtəsinə keçərək davranışları, fikir prosesini tənzimləyir. Bu qarşılıqlı təsir təkcə reallığın kod işarəni deyil, həmçinin onun törəmə halını, bir çox amilləri yadda saxlayır. Reallıq və şüur arasındakı qırılmaz bağlantını vurğulayaraq, yaranmış uyğunlaşmanın özünəməxsusluğuna arxalanaraq həqiqətləri sənədli görüntülərin konsepsiyasının əsası kimi baxışdan keçirir. Sənədli filmin baxışlar sisteminin keyfiyyət xüsusiyyətləri bu növlərə bölünür:

1. Dürüst gerçəklik nöqtəsi sənədli filmin tərkibinə qatılır və birbaşa həll edir;
2. Sənədli filmdəki güvənlik ümumi ideologiya və siyasi yön ilə əlaqələnərək konkret tarixi dövrü canlandırır;
3. Ekran təsvirində qərəzsizlik özünü dəlil kimi göstərir.

İstənilən hər hansı bir sənədli film təkrarolunmaz unikal keyfiyyətlərə malikdir, bundan əlavə sənətkar və həyat arasında ünsiyyətdir. Sənədli əsərin qüvvəsi, dünyanı əks etdirən mənəvi dəyərləri tam bir mürəkkəb prosesi ümumiləşdirir, mahiyyət etibarı ilə həyatın inkişafını önə çəkir, bir fenomeni bizə olduğu kimi göstərməklə dərin həqiqəti aşkara çıxarır. Sənədli film müxtəlif yollarla dəyişərək xronoloji baxımdan intellektual, texnoloji formada transformasiyanı dəqiq vəziyyətə gətirmişdir. Vizual görüntünün əsas təzahürləri cəmiyyətin orbitinə buraxılaraq varlığın bütün gerçəkliyini tamaşaçı üçün vizuallaşdırır. Başa çatmış ömrün və qarşıdakı həyatdan bir salnamə nəticəsi hazırlayaraq sənədli dünyagörüşü daha çox işıqlandırır. Sənədli filmdə başlanğıc nöqtə, modelləşdirmə daha önəmlidir. Mədəniyyət istiqamətində, ümumi sənət prosesində cəmiyyətin mənəvi həyatındakı təsirini genişləndirməyi bacarır. Sənədli filmin çəkilişi zamanı ekran quruluşunda kamera işarəyə alınan hadisələrin özünü açıqlayır. Görüntünü ötürmə vəziyyətində toplayır, modifikasiyası inkişaf gedişatında kompleks formada

seyrçinin beyninə aktiv təsir göstərir. Sənədli film, üç qolu: hadisələri, həqiqi insanları, real həyatı vahid bir köklə ümumiləşdirir.

Sənədli ekran XX əsr mədəniyyətinin, intellektual zamanın daşıyıcısı olaraq bir neçə sənətin çoxşaxəli janrıdır. Kütləvi informasiya vasitələri, sosial şəbəkələr, internet tətbiqlərində daim cəmiyyətin rəngarəng formatda təqdim olunan hekayəsini üzə çıxarır. O, izləyicilərə əsl görüntüləri, hadisələrin birbaşa iştirakçılarının, şahidlərinin nitqlərini dinləmək imkanı verir. M.E.Qoldovskaya deyir: *"Bu gün kütləvi informasiya vasitələrində sənədli janrlar xüsusi yer tutur – onlar həm ənənəvi, həm "klassik", həm də "yeni" sənətlərdə möhkəm yerləşiblər ki, bu da öz təbiətinə görə reallığın birbaşa təsbitinə əsaslanır"* [2, s.3]. Obyektiv varlığın düzgün formada çatdırılması dünyanın mənasını, orijinallıq xüsusiyyətini qoruyur. Kinematoqraf özünə aid funksiyada real həyatı, müxtəlif hadisələri olduğu kimi dolğunlaşdırır. O, mürəkkəb bir ictimai münasibətlərin mahiyyətini ifadə edərək şəxsiyyəti, dünyanın tarixini göstərmək qabiliyyətinə malik olur. Janrın təsnifatı idrak prosesində bədii düşüncənin təməl kateqoriyasına təsir göstərir. O yalnız ünsiyyət yaratmır, seyrçi üçün yeni faktlar barədə informasiya toplayır. Sənədli janr baxış bucağına görə bir neçə bölümə ayrılır:

1. Sənədli janr kino növləri içərisində qarşılıqlı münasibət yaradır;
2. Filmdə vasitəçilik əlaqələri qurur;
3. Ekran quruluşunda maddi müddəalara üstünlük verir.

Sənədli filmlərin ərsəyə gəlməsində struktur metod proseslərin mərhələlərini təyin etməklə geniş imkanlar yaradır. Xətti və tamamlama metodlarına ayrılır. Xətti metod faktların təhlili üçün öz əhəmiyyəti ilə seçilir. Tamamlama metodu qərəzsiz tarixi mənzərə düzəltmək üçün mənbələrin axtarışını və maraqlı hadisələrin baş verdiyi zamanı böyüdür. Sənədli filmin əsas keyfiyyətinə gəldikdə həqiqətin sübutunu müəyyənləşdirir. Maddi cisimləri bərabər formada yenidən yaradır, cəmiyyəti olmuş hadisələr barədə məlumatlandırmaq vəzifəsinə yönləndirir. Bu cür özünəməxsus əlamətləri təşkil edilir.

1) Sənədli film əsas həqiqəti əks etdirməyi nişana almalı, rejissorun fikrinə, dünyagörüşünə görə əks edilməlidir;
2) İzləyiciyə daha möhkəm psixoloji təsir edərək hiss ötürmək tələbatını ödəməlidir;
3) Ekran görüntüləri hamının asanlıqla başa düşdüyü dildə olmalıdır.

Sənədli ekran aləminin vasitəçiliyinə, inandırıcı gücünə arxayınlıqla güvənmək lazımdır. Uzun müddətdən sonra filmlərin hafizəmizi hərəkət etdirməsi xatirələr oyadır. Sənədli filmlər çoxlu sayda insanın istifadəsinə verilərək onların həyatında öncədən nəzərdə tutulmayan hadisələrin təbii mənzərəsinin yaradılması ilə bağlı fikirlərə toxunulur, dünya gerçəklikləri ilə

birbaşa bağlantı qurur. Müasir bəşəriyyətə tətbiq edilən düzgün olmayan xəyallardan nicat tapmağın həyata keçdiyini görür, reallığa münasibətində azadlığa qovuşur. Sənədli film məqsəd və vəzifəsinə görə iki növə ayrılır.

Sənədli filmin məqsədinə daxildir:

a) İnsanların həm düşünmə qabiliyyətini, həm də duyğulandıran fəaliyyətini gücləndirir;
b) Yaşadığımız bəşəriyyətin həqiqətini, reallığın tərəfini izah edir.

Sənədli filmin vəzifəsi aşağıdakılardan ibarətdir:

a) Bir əhvalatın qruplaşmasını yaradır;
b) Həyatın vizual təsvirdə əksinin özül dayağını konkretləşdirir;
c) Filmin görüntülü və ifadəli vasitələrin məcmusunu təsis edir.

Sadaladığımız bu predmetlər tamaşaçıya uydurma patogenlərə yol vermir, həyat prosesinin səhvinə, insan üçün lüzumsuz bir hərəkətə səbəb yaratmır və cəmiyyətin mənimsənilməsində ictimai-tarixi vəziyyətlə əlaqələndirir, bir sözlə, bizə yaşadığımız varlıq barəsində söhbət açır. Sənədli filmdə tarixin gerçəkliyi, obrazların əsl hissləri seyrçi inamının təsiri ilə birbaşa hərəkət edir, müvafiq funksiyaları yerinə yetirir.

Məlumat funksiyası – bilgini təmin etmək cəmiyyətin ehtiyacları üçün informasiyanın daimi olaraq qəbul edilməsidir;

Mədəni və təhsil funksiyası – əsasını sərgilərdən, konsert salonlarından, elmi laboratoriyalardan reportajlar, dünya, milli mədəniyyət barəsində filmlər baxışdan keçirilir;

Aparıcı, birləşdirici funksiya – bütöv ideyanı düşüncəli formada sistemləşdirərək insan kütləsinin tələbatları arasında körpü yaradır;

Sosial-pedaqoji funksiya – ictimai rəyə dayanan müvafiq bir həyat üsulunun əxlaq, dövlət siyasəti materialında yayır.

Sənədli filmdə yığcam məzmun daxilində müəllifin istəyi əsasında həqiqətə aparan yol göstərilir, izləyici ilə birlikdə araşdırılır. Sənədli yaradıcılıq fikri yalnız bir fakt tutumunda güclü, doğruluq arqumentidir. Bir sözlə, faktlar uydurmaya zidd olduğu meyarlarda təşvişverici təsirə malikdir. Burada hadisələr icad edilmir, lakin həyatdan götürülür. Başlıca addım mövzunu aydınlaşdırmaq lazımdır, fikir öncədən düşünülür, maraqlı olaylar, mədəni şəxsiyyətlər və cəmiyyət əsas predmet sayılır. Sənədli film mövzusunun özəlliyini axtarmaq üçün düzgün təyin edilmiş məna, məzmun nəticə vurğulanmalıdır. Sənədli təsvirdə informasiya mənbəyi, xüsusən müəllifdən, qəhrəmanın gündəlik yazılarından, habelə iştirakçısı olmayan başqa şahidlərdən birbaşa reallıq əldə olunur. Burada müəllif mülahizələr aparır, diqqətimiz ona cəmlənir. Hekayə materialına xüsusi nəzər yetirilir, quru, cansıxıcı formadan kənarlaşdırılır, qısa mətn tələb olunaraq aydın şəkildə çəkici məqamlarla tarazlanır. Hazırlıq prosesi və çalışma zamanı çox vaxt tələbi ilə sənədli

materiallar yığılır, onların özülündə ssenari yazılır. Sənədli filmin ssenarisi dramatik müddəalara uyğun tərtib edilir, süjet quruluşu dinamik yönə istiqamətlənir. Tamaşaçı obrazla tanış olur, qəhrəmana xas keyfiyyətlərdən təəccüblənir. Material hazır olanda filmin çəkiliş qrupuna göstərişlər verilir və hərəkət tənzimlənir. Deməli, sənədli filmin mövzusu bir obyekt kimi deyil, müəllif düşüncəsinin məhsulu kimi verilir. Sənədli filmlərdəki bədii fərdiləşdirmə nöqtəsi daha çox insandır, ən az isə ictimai hadisələrdir. Ekranda cəmiyyət üçün xüsusi insan dəyərləri öz töhfəsini filmin yeni mərhələsində müəyyən ölçüdə dünyanı əks etdirərək kinonun geniş ifadə vasitələrində sistemli şəkildə dəyişdirir, müəllifin varlıqlara uyğun olan bir qəhrəman tapmaq istəyini həyata keçirir. *"Sənədli kinoda obrazın estetik məzmununun dəyəri insanın reallığı dərk etməsi və idrakının ümumi qanunları ilə müəyyən edilir"* [4, s.77]. Sənədli əsərin həyati məzmunu birbaşa siqnalları etibarlılığa köklənir. Hər şeyə əsasən bütün filmi işıqla işıqlandırır. Etibarlılıq fenomeni iki sahədə mövcuddur:

1. Müəllifin şərhi ilə nadir şəxsiyyət fenomenini göstərmək;
2. Filmdə çəkilən həyat anının oxşarlığını nümayiş etdirmək.

Gələcək nəsillərin həyatı olduğu kimi anlamaları üçün indiki dövrdə çəkilən sənədli filmlərin önəmli vasitə olacağı şübhəsizdir. Bu yöndən film ustalarının daim obyektiv, qərəzsiz mövqeləri vacibdir. Hər tarixi təbəqədə müxtəlif dövrlərin insanlarına xas olan dünyagörüşü izləyici duyur. Tamaşaçıekranda olmuş hadisələrə münasibət üsullarını filmin konsepsiyasına, ssenarinin orijinallığına, çəkilişlərə, görüntülərin quraşdırılmasına görə müəyyən edir. Sənədli filmin auditoriya kütləsi qarşısında funksiyası fantaziyaya, oyuna ehtiyac görmür, həyat həqiqətdə necə varsa kinoda da bu cür öz əksini tapır. Belə fikir bildirə bilərik ki, seyrçi sənədli vizual təsvirdə görüntünü, informasiyanı olduğu kimi qəbul edir. Əvvəlcə kameranın baxış nöqtələrində dəyişikliklər edir, izləyicini məlumatlandırmaqla ekrana kökləyir. Hadisənin gedişini kadrda ünsiyyət anı olaraq nəzərdən keçirir. Müəllifin tamaşaçı üçün nəzərdə saxladığı əsas cəhətlər bunlardan ibarətdir:

a) Müəllif filmin məzmununu, faktların ardıcıllığını geniş şəkildə seyrçiyə açıqlayır;
b) Vizual təsvirdə prosesin daxilindəki məlumat qeyri-aydın qalmır, ətraflı formada izləyiciyə dəqiq proqnozlaşdırılır.

Sənədli filmlərdə bu gün beynəlxalq səviyyəyə qalxmaq məsuliyyətli prosesdir. Rejissorlar illərdir apardığı araşdırmalar nəticəsində tamaşaçıları özünə tərəf cəlb etməyə çalışmışlar. Müasir sənədli filmlər bütün vasitələrin arsenalına hakimdir. Sinxron müsahibələr, çəkiliş nöqtələri bizim dövrümüzdə sənədli film istehsalının gələcək inkişafında xüsusi əhəmiyyət daşıyır. Beləliklə, bu nəticəyə gəlirik ki, sənədli filmin özəllikləri kinematoqrafiya sahəsində

ideyaya, düzgünlüyə daha çox maraq doğurur. Yaşadığımız günün, tariximizin həqiqətini boyamağı cəmiyyətə göstərir. Sənədli film dünyanı konseptual formada gerçək olayların tipoloji xüsusiyyətlərini müxtəlif vasitələrlə ümumiləşdirərək kompleks anlayış kontekstində işin gedişatını müəyyənləşdirmiş tamaşaçının psixologiyasına təsir göstərmiş, ekranda reallığın ifadə vasitəsinə çevrilmişdir. Sənədli filmin inkişafı həqiqətdə baş verən hadisələrlə təmas yaradır, reallıq fakturasını daim ekran təsvirində canlandırmağı bacarır.

## Ədəbiyyat siyahısı:

1. Yusifova K.H. Sənədli filmlərdə gerçəkliyin əksi. Problemlərə baxış. Dərs vəsaiti. Bakı: Afpoliqraf, 2019, 96 s.
2. ГолдовскаяМ. Е. Творчество и техника. М. Искусство, 1986, 190 с.
3. Дробашенко С.В., Григорьев Р.Г., Кармен Р.Л., Новогрудский А.Е., Рошаль Л.М., Славин К.В.,Трошкин В.Н.Современный документальный фильм. М. Искусство, 1970, 247 с.
4. Дробашенко С.В. Пространство экранного документа. М.Искусство, 1986, 320 с.

**Айсель Агаширин кызы Рустамова**

# ТЕОРЕТИЧЕСКИЕ АСПЕКТЫ СОЗДАНИЯ ДОКУМЕНТАЛЬНОГО ФИЛЬМА

**Резюме:** В научной статье рассказывается о превращении кинематографа в сферу искусства, о производительной деятельности и законах кинематографа. Обсуждается широкое понимание слова документ, принцип документальности и развитие этого термина в кинематографе. Научная работа изучает историю создания документальных фильмов, их роль в экранном творчестве, теоретические положения данной сферы искусства. Подробно анализируются характеристики документального фильма, классификация жанров, цели, задачи и функции документальных фильмов.

**Ключевые слова:** кино, кинематография, документальность, документальный фильм, достоверность, реальность.

**Rustamova Aghashirin gizi Aysel**

## THEORETICAL ASPECTS OF CREATING A DOCUMENTARY

**Summary:** The scientific article tells about the transformation of cinema into the sphere of art, about productive activity and the laws of cinema. The broad understanding of the word document, the principle of documentality and the development of this term in cinema are discussed. The scientific work studies the history of creation documentaries, their role in screen creativity, the theoretical provisions of this field of art. The characteristics of a documentary film, the classification of genres, goals, objectives and functions of documentary films are analyzed in detail.

**Key words:** cinematography, documentary, documentary film, reliability, reality.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 23.09.2022**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**Əməkdar incəsənət xadimi, professor Əli Əmirli**